*UOT 37.01 UOT 37.01*

# QEYRİ-FORMAL VƏ İNFORMAL TƏHSİLİN TANINMASINDA AZƏRBAYCAN TƏCRÜBƏSİ VƏ ONUN TƏKMİLLƏŞDİRMƏSİ

**İsmət Şahlar oğlu Qəribov**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCİD:** 0009-0003-0402-5555
**E-mail:** i.garibov02@gmail.com

***Açar sözlər:*** *ömürboyu təhsil, formal, qeyri-formal, informal, tanınma, qiymətləndirmə, akkreditasiya*
***Ключевые слова:*** *обучение на протяжении всей жизни, формальное, неформальное, информальное обучение, признание, оценка, аккредитация.*
***Key words:*** *lifelong learning, formal, non-formal, informal, recognition, assessment, accreditation*

Müasir dövrdə təhsil təkcə məktəb və universitetlərlə məhdudlaşmır. İnsanlar müxtəlif mühitlərdə – iş yerində, cəmiyyətdə, gündəlik həyat fəaliyyətlərində müxtəlif cür bilik və bacarıqlar qazanırlar. Bu kontekstdə qeyri-formal və informal təhsil formalarının tanınması məsələsi beynəlxalq arenada mühüm yer tutur. Qeyri-formal və informal yollarla əldə olunan səriştələrin rəsmi şəkildə tanınması, həm fərdin şəxsi inkişafı, həm də əmək bazarına inteqrasiya baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan bu sahədə beynəlxalq tendensiyalara uyğun olaraq müəyyən addımlar atmış, xüsusilə peşə ixtisasları üzrə tanınma sahəsində bu yanaşmanı tətbiq etməyə başlamışdır. Lakin tətbiq olunan bu sistemin hələ tam formalaşmaması, normativ-hüquqi bazanın məhdudluğu və icra mexanizmlərinin zəifliyi bu sahənin davamlı inkişafına mane olan əsas amillərdir. Bu məqalədə Azərbaycanda qeyri-formal və informal təhsilin tanınması sahəsində mövcud vəziyyət təhlil edilir, üzləşilən əsas problemlər araşdırılır və bu istiqamətdə mümkün təkmilləşdirmə yolları təqdim olunur.

**Azərbaycanda qeyri-formal və informal təhsilin tanınması ilə bağlı təcrübə:** Azərbaycan Respublikasının Təhsil haqqında qanununun II fəslinin 12-ci maddəsində Azərbaycan Respublikasında tətbiq edilən təhsil formalarından bəhs edilir [1]. Belə ki, formal, qeyri-formal və informal təhsil formaları ölkə ərazisində tətbiq olunur. Qeyri-formal və informal təhsilin tanınması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 5 avqust tarixli 279 nömrəli Qərarı ilə təsdiq edilmişdir [2]. Sözügedən proses hazırda yalnız peşə təhsili pillələri üzrə həyata keçirilməkdədir. Vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanların keçirilməsi və onlara peşə ixtisasının təsdiq edən sənədin verilməsi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində olan Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən həyata keçirilir [2]. İxtisaslar əmək bazarının tələbləri nəzərə alınmaqla yanaşı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsili üzrə ixtisaslar Təsnifatı"na uyğun müəyyən edilir [3]. Beynəlxalq təcrübədə olduğu kimi qeyri-formal və informal təhsilin tanınması xidməti üçün müəy-

yən məbləğdə ödəniş edilməlidir. Bununla bağlı olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 dekabr 2020-ci il tarixli 508 nömrəli Qərarına əsasən vətəndaşlar müraciət etdikləri müvafiq peşə ixtisasları üzrə istər nəzəri, istərsə də praktiki imtahanlarda iştirak etmək üçün tələb edilən xidmət haqqını ödəməlidirlər [4].

Qiymətləndirmə və tanınma mərhələləri: Mövcud qanunvericiliyə əsasən vətəndaş qiymətləndirmə mərhələsində iştirak etmək üçün ilk növbədə elektron şəkildə qeydiyyatdan keçməlidir. Müraciət etmək üçün vətəndaş ümumi orta təhsil səviyyəsini 4 il əvvəl və ya tam orta təhsil səviyyəsini 2 il əvvəl bitirməli, müraciət etdiyi sahə üzrə minimum 2 il təcrübəsi olmalıdır [2]. Prosesin ümumi gedişatı bu şəkildədir:

**1. Sənəd qəbulu:** Sənəd qəbulu mərhələsi prosesin ilkin və vacib addımlarından biridir. Bu mərhələdə müvafiq peşə ixtisasları üzrə müraciət edən şəxs(lər)in təqdim etdiyi sənədlərin toplanması, müraciətin qeydə alınması həyata keçirilir. Müraciət elektron qaydada həyata keçirilməkdədir.

**2. Sənədlərə baxış:** Bu mərhələdə təqdim olunan sənədlərin düzgünlüyü, tamlığı və Nazirlər Kabinetinin 5 avqust 2020-ci il tarixli 279 nömrəli qərarında qeyd edilən müraciət tələblərinə uyğunluğunu detallı şəkildə araşdırılır. Məqsəd prosesin şəffaflığını və dəqiqliyini təmin etməkdir. İlkin baxışın aparılması üçün müvafiq ixtisas üzrə bilik, bacarıq, səriştə və təcrübəni özündə əks etdirən aşağıdakı sənədlərin və materialların təqdim olunması tələb edilir [2]:

1. şəxsiyyəti təsdiq edən sənədin surəti;
2. təhsil haqqında dövlət sənədinin surəti;
3. bilik, bacarıq, səriştə və təcrübəni əks etdirən sənədlər (fotoşəkillər);
4. nümunələr (olduğu halda);
5. əmək kitabçası (olduğu halda);
6. iş təcrübəsi haqqında arayış və müvafiq sertifikatlar (olduğu halda).

**3.Biliyin qiymətləndirilməsi:** Bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi Qiymətləndirmə Komissiyası tərəfindən təşkil edilir. Komissiyanın tərkibi sədr də daxil olmaqla 3 (üç) üzvdən – Agentliyin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (DMA-dan) və işəgötürənlərin nümayəndələrindən ibarətdir [2]. Qiymətləndirmə Komissiyasının tərkibi  Agentliyin İdarə Heyətinin sədri tərəfindən təsdiq edilir [2]. Agentliyin nümayəndəsi Komissiyanın sədri təyin olunur. Komissiya bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi prosesinə sahə üzrə müvafiq təhsilə malik və ixtisas üzrə ən azı 5 (beş) il iş təcrübəsi olan mütəxəssislər sırasından müstəqil ekspertlər cəlb edir [2].

Sənədləri qaydasında olan ərizəçi(lər) biliyin qiymətləndirilməsi mərhələsi dəvət edilir və bu mərhələdə ərizəçinin müraciət etdiyi peşə ixtisası üzrə biliyinin yoxlanılması məqsədini daşıyır. Bu mərhələdə test imtahanı vasitəsilə ərizəçinin sahəyə dair bilikləri obyektiv şəkildə qiymətləndirilir. Ərizəçiyə hər bir modul üzrə 10 sual verilir və hər bir düzgün cavab 1 (bir) balla qiymətləndirilir [2]. Sualların 50 faizindən çoxunu düzgün cavablandıran ərizəçi(lər) bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi mərhələsinə buraxılır.

**4.Bacarıq, təcrübə və səriştənin qiymətləndirilməsi:** Bu mərhələnin təşkili üçün bir neçə addımlar atılır. Bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi müvafiq ödəniş edilərək peşə təhsili müəssisələrinin təlim-istehsalat və təsərrüfat sahələrində, eləcə də işəgötürənlərin istehsalat bazasında keçirilir. Praktiki bacarıqların nümayiş olunacağı emalatxana və ya istehsal sahələri Agentlik tərəfindən müəyyənləşdirilir, uyğunluğu təmin olunan müəssisə və təşkilatların

siyahısı tərtib edilir. Agentlik praktiki imtahan prosesinin səmərəliliyini və rabitəliyini təmin etmək məqsədilə özəl sektorun nümayəndələri ilə Anlaşma Memorandumları imzalayır və əməkdaşlıq çərçivəsində bacarıq, təcrübə və səriştənin qiymətləndirməsini həyata keçirir. Nəzəri biliklərin qiymətləndirilməsi mərhələsindən uğurla keçmiş ərizəçilərin praktiki bacarıqlarının, iş təcrübələrinin və səriştələrinin qiymətləndirilir. Məqsəd, müraciət edənin sahə üzrə tələb olunan işləri səmərəli şəkildə yerinə yetirmək qabiliyyətinə malik olub-olmamasını müəyyən etməkdir. Bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi müvafiq ixtisaslar üzrə təhsil proqramları (kurikulumlar) ilə müəyyən edilmiş modullar üzrə təlim nəticələrinin qiymətləndirilməsi meyarlarına uyğun həyata keçirilir [2]. Bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi Komissiya tərəfindən tapşırıqvermə üsulu ilə həyata keçirilir [2]. Qiymətləndirilmə nəticəsində tapşırığın ən azı 50 faizini düzgün icra edən ərizəçi "məqbul", 50 faizindən az hissəsini düzgün icra edən ərizəçi isə "qeyri-məqbul" alır [2].

**5. Peşə ixtisasını təsdiq edən sənədin verilməsi:** Bu mərhələ müraciətçinin bilik, bacarıq və səriştələrinin qiymətləndirilməsi prosesini uğurla tamamladığına dair sənədin təqdim olunmasından ibarətdir. Peşə ixtisasını təsdiq edən sənəd müraciətçinin sahə üzrə peşəkar səviyyəyə uyğun bilik və bacarıqlara malik olduğunu rəsmən təsdiq edir. Müvafiq ixtisas üzrə biliyi və həmin ixtisas üzrə təhsil proqramının (kurikulumun) ayrıca hissəsi olan modul təlimi üzrə bacarıq, səriştə və təcrübəsi qiymətləndirilərək, müvəffəqiyyətlə imtahandan keçmiş ərizəçiyə sertifikat, müvafiq ixtisas üzrə biliyi və həmin ixtisas üzrə təhsil proqramının (kurikulumun) bütün modulları üzrə bacarıq, səriştə və təcrübəsi qiymətləndirilərək, müvəffəqiyyətlə imtahandan keçmiş və sertifikatlar almış ərizəçiyə diplom təqdim edilir [2]. Sənəddə bütün məlumatlar Azərbaycan dilində yazılır və sənədin üzərində sənədin nömrəsi, verildiyi tarix, identifikasiya məlumatları, ixtisasın adı, ixtisasın kodu, modulun adı (sertifikat verildiyi halda), müvafiq ixtisas üzrə əmək fəaliyyəti ilə məşğul olmaq üçün əsas sayıldığına dair qeyd (sertifikat verildiyi halda) və ilk peşə təhsili səviyyəsində təhsil haqqında sənədə bərabər tutulduğuna və peşə təhsili səviyyəsinin növbəti pilləsində təhsili davam etdirmək və müvafiq ixtisas üzrə əmək fəaliyyətinə başlamaq üçün əsas sayıldığına dair qeyd (diplom verildiyi halda) əks olunmalıdır [2].

**Beynəlxalq təcrübə əsasında Azərbaycanda qeyri-formal və informal təhsilin tanınması qanunvericiliyinin təkmilləşdirilməsi problemləri:** Nazirlər Kabinetinin 5 avqust 2020-ci il tarixli, 279№-li qərarında [2] "vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübə..." ifadəsinə diqqət edək. Burada "peşə təhsili" ifadəsi cümlənin məntiqini pozur. Peşə təhsili formal təhsil sayılır. Qeyd edilən "peşə təhsili" ifadəsinin əvəzinə "peşə ixtisasları" işlədilməlidir. Çünki müraciət edən vətəndaşlar bu peşə ixtisaslarını qeyri-formal və informal yollarla yiyələniblər.

Daha sonra "təcrübə" ifadəsinə nəzər yetirsək görərik ki, "təcrübə" termini bilik, bacarıq və səriştə anlayışlarına yeni məna qatmır. Bu anlayışların hər biri təcrübənin nəticəsində yaranır. Aparılan qiymətləndirmə zamanı prosesə cəlb edilən ekspertlər təcrübənin birbaşa özünü deyil də, təcrübənin nəticələrini, yəni biliyi, bacarığı və ya səriştəni qiymətləndirir. Bütün bu göstərilənləri nəzərə alaraq deyə bilərik ki, qayda da qeyd edilən "təcrübə" anlayışını konseptual olaraq yanlışdır.

Digər təklif "imtahan" termini ilə əlaqəlidir. İmtahan anlayışı adətən formal təhsil və təlim çərçivəsində istifadə olunan bir anlayışdır. QFİTT prosesi zamanı isə yazılı tapşırıqlardan, praktiki testlərdən, müsahibələrdən, simulyasiya olunmuş iş yeri fəaliyyətlərindən istifadə edilir.

Hər prosesdə bir-birindən fərqli qiymətləndirmə növlərindən istifadə edilir. Buna əsasən "imtahan" termininin daha ümumi bir ifadə olan "qiymətləndirmə" ilə əvəz olunması daha uyğundur.

"Qeyri-formal və informal təhsil" termini də ziddiyyət yaradır. Belə ki, "təhsil" müəyyən təşkilatlanmış bir sistemə, quruluşa aid ifadədir, halbuki "qeyri-formal" və xüsusilə "informal" fəaliyyətləri təhsil və ya təlim fəaliyyəti kimi təşkil edilməmiş, iş şəraitində də əldə edə bilirik. Məsələn, Avropada bu proses "Validation of non-formal and informal learning" yəni "qeyri-formal və informal öyrənmənin doğrulanması", Türkiyədə "Yaygın və serbest öğrenmelerin doğrulanması", Portuqaliyada "Reconhecimento, Validação e Certificação de Competências" yəni "kvalifikasiyaların tanınması, doğrulanması və sertifikatlaşdırılması" kimi adlanır. Beynəlxalq təcrübədən istifadə edərək bu prosesi "qeyri-formal və informal öyrənmənin tanınması" kimi adlandıra bilərik.

Ən əsas təklif edilən dəyişiklik isə "akkreditasiya olunmuş qiymətləndirmə mərkəzlərinin" yaradılmasıdır. Beynəlxalq təcrübəyə əsasən deyə bilərik ki, TKTA-nın həm "tənzimləyici" həm də "operator" kimi fəaliyyət göstərməsi beynəlxalq təcrübəylə ziddiyyət təşkil edir. Yəni həm bu prosesi həyata keçirən həm də tənzimləyən müəssisə kimi fəaliyyət göstərə bilməz. TKTA Azərbaycanda QFİTT sisteminin tənzimləyicisi olaraq, digər bütün prosesləri qiymətləndirmə mərkəzlərinə həvalə etməlidir. Bu mərkəzlər yüksək keyfiyyətin qorunub saxlanması üçün akkreditasiya prosesindən keçməlidir. Beynəlxalq təcrübəyə əsasən deyə bilərik ki, Türkiyədə 267, Rumıniya 37, Portuqaliyada 309 qiymətləndirmə mərkəzi aktiv şəkildə fəaliyyət göstərir. Qiymətləndirmə Mərkəzlərinin ölkəmizdə bu prosesi həyata keçirməyə başlaması prosesin əhatə dairəsini genişləndirə bilər. Məsələn, Gəncədə və ya digər bölgədə yaşayan vətəndaşların imtahan üçün Bakıya gəlməsi çətin və əziyyətli işdir. Çünki Qiymətləndirmə TKTA tərəfindən həyata keçirilir və prosesdə iştirak etmək istəyən buraya müraciət etməlidir. Qiymətləndirmə Mərkəzləri iqtisadi-coğrafi cəhətdən rayonlaşdırılmış iqtisadi rayonlarda fəaliyyət göstərməsi buna nümunə ola bilər. Məsələn, Gəncə-Daşkəsən iqtisadi rayonunda Gəncədə, Lənkəran-Astara iqtisadi rayonunda Lənkəranda, Quba-Xaçmaz iqtisadi rayonunda Qubada Qiymətləndirmə Mərkəzləri öz fəaliyyətini həyata keçirə bilər. Yəni Qiymətləndirmə Mərkəzi tanınma prosesinin coğrafi arealını genişləndirə bilər. Peşə məktəbləri, təlim və tədris mərkəzləri, universitetlər və s. müəssisələr Qiymətləndirmə Mərkəzi rolunda iştirak edə bilər. Türkiyədə bu sistem sturukturlaşmış və formalaşıb. Ölkəmizdə qiymətləndirmə mərkəzlərinin pilot olaraq fəaliyyətə başlanılmasına bilər. Ruminiya təcrübəsində olduğu kimi, qiymətləndirmə mərkəzlərinin akkreditasiyasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə əməkdaşlıq edilə bilər.

Tanınma prosesi beynəlxalq təcrübədə olduğu kimi, qismən və tam tanınma terminləri ilə ifadə edilməsi qənaətbəxş hesab edilə bilər. Mövcud qanunvericilikdə belə qeyd edilir ki, vətəndaş müvafiq təhsil proqramının ayrılıqda modulları üzrə sənəd əldə edərsə sertifikat, müvafiq təhsil proqramının bütün modulları üzrə sənəd əldə edərsə yekunda diplom təqdim edilir. Ayrılıqda istənilən modulları üzrə sənəd əldə etməklə yekunlaşan tanınmanı "qismən" tanınma adlandıraraq yekunda sertifikat, bütün modullar üzrə sənəd əldə etməklə yanaşı diplom əldə etməklə yekunlaşan tanınmanı isə "tam" tanınma adlandıra bilərik.

Tanınma üzrə müraciətlər ölkəmizdə qismən elektron qaydada həyata keçirilir. Belə ki, vətəndaş online şəkildə qeydiyyatını tamamlayır və daha sonra izlənilməsi çətinləşir. Buna əsasən

QFİTT üzrə elektron portalın yaradılması və yaradılan portal vasitəsilə vətəndaş prosesə asanlıqla müraciət edə, həmçinin müraciət statusu barədə ətraflı məlumat ala, eyni zamanda əldə etdiyi sənədləri kabinetində görə bilər. Elektron sistemə keçidlə vətəndaşlara təqdim edilən diplom və sertifikatların elektron şəkildə təqdim edilməsi də prosesin daha qısa zamanda həyata keçməsinə dəstək ola bilər. Hazırki təcrübədə sənədlər fiziki daşıyıcıda təqdim edilir. QFİTT üzrə elektron portalın olması gələcəkdə minlərlə müraciətçinin asanlıqla müraciət edərək sənəd sahibi olmasına köməklik göstərə bilər.

Digər bir nüans isə qanunvericiliydə olan təhsil haqqında dövlət sənədinin olması tələbidir. Yəni vətəndaş minimum 9 illik orta təhsilə malik olmalıdır. Hesab edirəm ki, əgər vətəndaş qismən tanınmaya müraciət və ya peşə tanınmasına müraciət edirsə, vətəndaş bu tələbi ödəməyə də bilər. Təklif edilən yanaşma budur ki, "peşə tanınması" və "təhsil tanınması" bir birindən ayrılsın və hər tanınmanın öz üstün cəhətləri qeyd olunsun. Peşə tanınması vətəndaşa əmək bazarına çıxış və ya əmək bazarındakı mövqeyinin güclənməsinə, təhsil üzrə tanınma isə əvvəlki təhsil məlumatlarının bərpasına, təhsilini davam etdirməsinə, akademik fəaliyyət göstərməsinə, həmçinin təhsilini davam etdirdiyi zaman bir sıra üstünlüklər (tədris müddətinin qısaldılmasına, müəyyən fənlərdən azad olmasına və s.) özündə birləşdirsin.

Mövcud qanunvericiliyə Azərbaycanda yaşayan əcnəbi vətəndaşların tanınma prosesinə müraciət hüququnun da əlavə edilə bilməsi məqbul hesab olunur. Hazırki qanunvericiliydə bu nüansı tənzimləyəcək maddə və ya bənd öz əksini tapmır.

Azərbaycan ərazisində tanınma prosesi icbari olmadığı üçün bu sahəyə üzrə az sayda müraciətlər qeydə alınır. Təklif var ancaq tələb yaradılmayıb. Məsələn Türkiyə təcrübəsinə yenidən nəzər yetirək. Türkiyədə 1 aprel 2025-ci ilə qədər 3.018.833 nəfərə sənəd təqdim edilib [7]. MYK tərəfindən verilən sənədin icbari olmasından sonra isə 2.426.878 nəfərə sənəd təqdim edilib [7]. Statistik göstəricilərə əsasən demək olar ki, sənəd əldə edən şəxslərin 80.4%-i proses icbari olduqdan sonra sənəd əldə edib [7].

Mövcud qanunvericiliyə dəyişiklik edilərək ilkin mərhələdə 5 ixtisas üzrə tanınmanın icbariliyi təklif edilir. Eyni zamanda bu sənədin əldə olunması vətəndaşa bir sıra üstünlüklər təqdim etməlidir. Mövcud qanunvericiliyə görə peşə ixtisasını təsdiq edən sənəd vətəndaşa əmək fəaliyyətinə başlamaq hüququ verir [2]. Əlavə üstünlüklər olmalıdır ki, vətəndaş prosesdə iştirak etməkdə maraqlı olsun. Məsələn, Portuqaliyə təcrübəsində biz gördük ki, Portuqaliya Milli Kvalifikasiya Çərçivəsi EQF-in əsasında hazırlandığı üçün Portuqaliya ərazisində əldə edilən kvalifikasiyalar digər Aİ üzvü ölkələrində də keçərlidir. AzMKÇ konseptual baxımdan Avropa Ali Təhsil Məkanının Kvalifikasiyalar Çərçivəsi və Ömürboyu təhsil üzrə Avropa Kvalifikasiyalar Çərçivəsinin meyarlarına uyğun hazırlanmışdır [8]. Bu o deməkdir ki, tanınma həyata keçirilən kvalifikasiyalar Aİ ərazisində rəsmən tanına bilər. Digər məsələ isə Türkiyə və Portuqaliya təcrübəsində qarşılaşdığımız Europass əlavələridir. Bu sertifikat sahibinin hansı bilik və bacarıqlara malik olduğunu beynəlxalq arenada izah edir. Bu prosesə cəlb olanların sayının artmasında köməklik göstərə bilər.

İşəgötürənlər tərəfindən bu sənədin tələb olunması, həm işəgötürənlərin, həm də cəmiyyətin kvalifikasiyalı və peşəkar kadrların üzə çıxmasına töhfə verəcəkdir. Bu praktika, işçi qüvvəsinin keyfiyyətinin yüksəldilməsinə, iş proseslərinin effektivliyinin artmasına və ümumi əmək bazarında rəqabət qabiliyyətinin güclənməsinə şərait yaradacaqdır. Beləliklə, sertifikatlaşdırılmış bilik və bacarıqlara malik olan kadrların işə cəlb edilməsi, həm müəssisələrdə, həm də

cəmiyyətdə ümumi peşəkar standartların yüksəldilməsinə xidmət edəcəkdir

Araşdırmanın əsas nəticələri: Azərbaycanda isə hələlik qeyri-formal və informal təhsilin tanınması sahəsində nisbətən az təcrübəyə malikdir və da istər qanunvericilik, istərsə də qiymətləndirmə prosesinə müəyyən təkminləşdirmə işlərinin aparılmasını zəruru edir. Mövcud yerli qanunvericilik və prosedurlar beynəlxalq standartlara uyğunlaşdırılmalı və qiymətləndirmənin aparılması üçün hüquqi əsaslar daha aydın şəkildə müəyyən edilməlidir.

Tədqiqatın nəticələrinə əsaslanaraq Azərbaycanda qeyri-formal və informal təhsilin tanınması üzrə qanunvericiliyin təkmilləşdirilməsi üçün bir neçə tövsiyə irəli sürülür. İlk növbədə, qeyri-formal və informal təhsilin tanınması üzrə müstəqil qiymətləndirmə və sertifikatlaşdırma mərkəzlərinin yaradılması vacibdir. Mövcud qanunvericiliyin təkminləşdirilməsi və peşə tanınmasında qiymətləndirmə prosesində formal tədris proqramlarına deyil də mövcud kvalifikasiya və peşə standartlarına uyğun həyata keçirilməsi də tətqiqatın nəticələrindən biridir.

**Problemin aktuallığı.** Azərbaycanda qeyri-formal və informal təhsilin tanınması son illərdə diqqət mərkəzində olsa da, bu sahədə tətbiq olunan mexanizmlər hələ də formalaşma mərhələsindədir. Formal təhsil sistemindən kənarda əldə edilən bilik və bacarıqların tanınması, həm fərdi inkişaf, həm də əmək bazarına inteqrasiya baxımından mühüm əhəmiyyət kəsb edir. Lakin normativ-hüquqi bazanın natamamlığı və qiymətləndirmə mexanizmlərinin məhdudluğu bu prosesin geniş miqyasda tətbiqinə mane olur. Bu baxımdan, mövcud təcrübənin təkmilləşdirilməsi və beynəlxalq nümunələrdən faydalanılması zəruridir.

**Problemin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycanda qeyri-formal və informal təhsilin tanınması sahəsində mövcud vəziyyət təhlil olunur, mövcud boşluqlar müəyyənləşdirilir və beynəlxalq təcrübə əsasında təkmilləşdirmə istiqamətləri təklif edilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Problemin praktiki əhəmiyyəti ondan ibarətdir ki, qeyri-formal və informal yollarla əldə olunmuş bilik və bacarıqların tanınması və sənədləşdirilməsi, təhsilini yarımçıq qoymuş və ya əmək bazarından kənarda qalmış şəxslərin məşğulluq imkanlarını artırır. Bu yanaşmanın tətbiqi həm fərdlərin karyera inkişafına, həm də səriştəyə əsaslanan işçi qüvvəsinin formalaşmasına töhfə verir.

## Ədəbiyyat

1. https://e-qanun.az/framework/18343
2. https://e-qanun.az/framework/45613
3. https://e-qanun.az/framework/22510
4.https://nk.gov.az/az/senedler/qerarlar/%E2%80%9Cpesa--tahsili--uzra--qeyri-formal-va--informal--tahsil--formalari-vasitasila--alda--edilmis--bilik--5027
5.https://azerbaijan.un.org/az/93789-avropa-i%CC%87ttifaq%C4%B1-v%C9%99-bmti%CC%87p-az%C9%99rbaycanda-ilk-d%C9%99f%C9%99-qeyri-formal-v%C9%99-informal-yollarla-%C9%99ld%C9%99
6. https://www.tkta.edu.az/p/informal-education#qebul
7. https://portal.myk.gov.tr/index.php?option=com_istatistik
8. https://e-qanun.az/framework/39622

**И.Ш. Гарибов**

**Проблемы признания неформального и информального обучения в Азербайджане и перспективы его совершенствования**
**Резюме**

Несмотря на то что в последние годы в Азербайджане были предприняты определённые шаги в направлении признания неформального и информального обучения, реализуемые в данной сфере механизмы всё ещё находятся на стадии формирования. В настоящее время процесс признания в основном применяется к профессиональным квалификациям и охватывает идентификацию и документирование знаний и навыков, приобретённых вне рамок формального образования. Тем не менее, остаются ряд проблем, включая неполную институционализацию системы признания, ограниченную нормативно-правовую базу, низкую заинтересованность со стороны общества и работодателей, недостаточно развитые механизмы оценки и отсутствие аккредитованных центров.

**I.Sh.Garibov**

**İssues in the recognition of non-formal and informal learning in Azerbaijan and perspectives for its improvement**
**Summary**

Although certain steps have been taken in recent years regarding the recognition of non-formal and informal learning in Azerbaijan, the mechanisms implemented in this field are still in a developmental phase. Currently, the recognition process is mainly applied in vocational qualifications and involves the identification and documentation of knowledge and skills acquired through non-formal and informal means. However, several challenges remain, including the incomplete institutionalization of the recognition system, limited regulatory and legal frameworks, low engagement from society and employers, underdeveloped assessment mechanisms, and the lack of accredited centers.

**Redaksiyaya daxil olub:** 02.04.2025